**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

**Ə M R**

**№-li 151/T**

**Bakı şəhəri** «31». 03. 2021-ci il

**2020/2021-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyası və aralıq qiymətləndirmə zamanı fəaliyyət göstərəcək Apellyasiya komissiyasının tərkibinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Təhsil Nazirinin 1059 saylı 11.09.2008-ci il tarixli əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında" Əsasnamənin 16-cı bəndini əsas tutaraq

**əmr edirəm:**

**I.** Universitetdə 2020/2021-ci tədris ilinin yay imtahan sessiyası və aralıq qiymətləndirmə zamanı baş verə biləcək münaqişələri aradan qaldırmaq üçün Apellyasiya komissiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

1.E.K.Qasımov -Histologiya,embriologiya və sitologiya kafedrasının professoru, sədr

2.E.H.Kərimli -Tələbə həmkarlar komitəsinin sədri.

3.C.İ.İsayev - Farmakoqnoziya və botanika kafedrasının müdiri, professor

4.İ.V.Şahverdiyeva-Histologiya,embriologiya və sitologiya kafedrasının laborantı, texniki katib

5.V.M.Hüseynova -Histologiya,embriologiya və sitologiya kafedrasının laborantı, texniki katib

**II.** Apellyasiya komissiyasına tapşırılsın:

1. Apellyasiya komissiyası öz işini onlayn formada təşkil etsin
2. Apellyasiya komissiyasının sədri qiymətindən narazı tələbənin şikayətinə baxılması üçün onlayn ərizəsini imtahan verilən gün saat 10.00-dan -18.00-dək qəbul etsin;
3. Apellyasiya komissiyası onlayn şəkildə fənn üzrə komissiyanın işinə cəlb olunmuş ekspert müəllimlərin və tələbənin iştirakı ilə cavabın təkrar baxışının keçirilməsini təmin etsin;
4. Apellyasiya komissiyası tələbənin qiymətində düzəliş aparması zərurəti yarandığı halda müvafiq qərar qəbul edərək rektora təqdim etsin;

**III.** Fakültə dekanları və kafedra müdirləri imtahan cədvəli üzrə ekspert müəllimlərin Apellyasiya komissiyasının işində iştirakını təmin etsinlər.

**IV.** Əmr çoxaldılaraq dekanlıqlar vasitəsilə kafedralara və tələbələrin nəzərinə çatdırılsın.

**V.** Əmrin icrasına nəzarət tədris və müalicə işləri üzrə prorektor prof.S.C.Əliyevə həvalə edilsin.

**Rektor** **professor Gəray Gəraybəyli**

ƏSLİ İLƏ DÜZDÜR
ATU KADRLAR ŞÖBƏSİ
Müdiri